**İŞ üzvünün nümunəvi etik davranış kodeksi**

**1. Tətbiq dairəsi**
Bu sənəd (*müvafiq qurumun adı)* yanında İŞ-nin üzvlərinə şamil olunur. Bu sənəddə göstərilən hər hansı bir müddəanın faktiki və ya potensial pozuntusuna şübhə olduqda şuranın istənilən üzvü şura sədrinə İŞ-nin növbəti iclasının gündəliyinə həmin məsələnin müzakirəsinin daxil edilməsi və ya İŞ-nin Əsasnaməsində göstərilən növbədənkənar iclasın keçirilməsi xahişi ilə müraciət edir.
Yekun qərar Əsasnaməyə uyğun olaraq qəbul edilir.

**2. Ödənişli iş müqavilələri və məsləhət xidmətləri**
İŞ üçün və onun adından görülən hər hansı işə görə heç bir tərəfdən heç bir ödəniş alına bilməz.

**3. Hədiyyələr və ziyafət**
Heç bir İŞ üzvü hər hansı təşkilat və ya şəxsdən İŞ-dəki işinə təsir edə biləcək hər hansı hədiyyə, ziyafət təklifi və ya digər dəyərli bir şey qəbul edə bilməz.

**4. Korrupsiyaya qarşı mübarizə**
Biz fəaliyyətimizin bütün aspektlərində dürüstlük və ədalətliliyin olmasını tələb edirik. Biz korrupsiyaya qarşı dözümlülük göstərmirik və istər birbaşa, istərsə də dolayı yolla istənilən formada rüşvəti qadağan edirik.

**5. Daxili məlumatlar**
Nəzdində İŞ-nin yaradıldığı dövlət orqanı ilə işimizin gedişində əldə etdiyimiz hər hansı informasiyaya hörmətlə yanaşacaq və bu informasiyaları yaymazdan əvvəl onların açıq informasiya olmasına əmin olacağıq. Digər tərəfdən, dövlət orqanının ictimaiyyət üçün açıq olmalı olan məlumatları qapalı saxladığını görsək, müvafiq əsasnamədə İŞ-yə verilən səlahiyyətlərdən istifadə edərək dövlət orqanına bu məlumatları açıqlaması üçün təsir göstərəcəyik.

**6. İctimai şura üzvləri ilə kənar tərəflər arasında münasibətlər**
Biz bir-birimizə və birgə çalışdığımız tərəflərə hörmət və diqqətlə yanaşacaq, onların müxtəlifliyini, o cümlədən mədəni mənşə, cins, bölgə, din, əlillik, ailə vəziyyəti və s. baxımından müxtəlifliklərini nəzərə alacağıq.

**Mənbə:** Ictimai Şuraların fəaliyyətinə dair bələdçi